***PEDAQOGİKA VƏ METODİKA***

# NİTQ İNKİŞAFI ÜZRƏ İŞİN MƏZMUNU VƏ XÜSUSİYYƏTLƏRİ

**Sevda Abbasova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*https://ORCID.org/0000-0002-6516-2444*
*sevda411@mail.ru*

**Xülasə**

Uşağın nitqini inkişaf etdirmək dedikdə onun nitq orqanlarını məşq etdirmək, dilin leksik və qrammatik işarələrinin başa düşülməsini asanlaşdırmaq, leksik və qrammatik işarələrin köməyi ilə real vəziyyəti qiymətləndirməyi öyrətmək ədəbi normaların yadda qalmasını, yəni morfem, söz, söz birləşməsi və cümlə kimi dil işarələrinin nitqdə işlədilmə ənənəsini, onların səs və qrafik tərkibini asanlaşdırmaq nəzərdə tutulur. Uşaqların nitqinin inkişafı üzrə işi düzgün təşkil etmək üçün müəllim dilçilik elminin nailiyyətlərinə istinad etməli, praktik istiqaməti əsas tutmalıdır.

Nitq inkişafı dilçiliyin tətbiqi bölməsi olmaqla düzgün danışmaq məsələlərini əhatə edir. Nitq inkişafına dair əsərlərdə, adətən, onun düzgünlüyü məsələsi mərkəzi yeri tutur. Nitqin düzgünlüyündən yalnız o vaxt danışmaq olar ki, o, fonetik, orfoepik, leksik, söz yaradıcılığı, semantik, qrammatik, üslubi və s. dil normalarını pozmasın. Nitq inkişafı xüsusi metodik vasitələrdən, müxtəlif növ məşqlərdən istifadə etməklə baş verir, bunlardan ən əsası rabitəli nitq üzrə məşğələlərdir. Nitq inkişafında dialoji və monoloji nitqin əhəmiyyəti böyükdür.

**Açar sözlər:** nitq inkişafı, cümlə quruluşu, yazılı və şifahi nitq.

# CONTENT AND FEATURES OF WORK ON SPEECH DEVELOPMENT

**Sevda Abbasova**
*Azerbajan State Pedagogical University*

**Abstract**

If we are talking about developing the child's speech, training his speech organs, facilitating the understanding of the lexical and grammatical signs of the

language, teaching him to appreciate the real situation with the help of lexical and grammatical signs, to remember the literary norms, i.e. it is intended to facilitate the tradition of using language signs such as morpheme, word, word combination and sentence in speech, their sound and graphic composition. In order to properly organize the work on the development of children's speech, the teacher should refer to the achievements of linguistic science and be based on the practical direction.

Speech development is an applied part of linguistics and covers the issues of speaking correctly. In the works on speech development, the question of its correctness usually occupies a central place. We can talk about the correctness of speech only when phonetic, orthographic, lexical, word creation, semantic, grammatical, stylistic, etc. do not violate language norms. Speech development takes place using special methodological tools, various types of exercises, the most important of which are exercises on communicative speech. The importance of dialogic and monologic speech in speech development is great.

**Key words**: speech development, sentence structure, written and oral speech.

## СОДЕРЖАНИЕ И ОСОБЕННОСТИ РАБОТЫ ПО РЕЧЕВОМУ РАЗВИТИЮ

**Севда Аббасова**

*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Если говорить о развитии речи ребенка, тренировке его речевых органов, облегчении понимания лексических и грамматических знаков языка, обучении его оценивать реальную ситуацию с помощью лексико-грамматических знаков, запоминать литературные нормы, то призван способствовать развитию традиции использования в речи таких языковых знаков, как морфема, слово, словосочетание и предложение, а также их звукового и графического состава. Чтобы правильно организовать работу по развитию речи детей, педагог должен обращаться к достижениям лингвистической науки и опираться на практическую направленность.

Развитие речи является прикладной частью языкознания и охватывает вопросы правильного говорения. В работах по развитию речи вопрос ее правильности обычно занимает центральное место. О правильности речи можно говорить только тогда, когда она фонетическая,

орфографическая, лексическая, словообразовательная, смысловая, грамматическая, стилистическая и т. д. не нарушать языковые нормы. Развитие речи происходит с помощью специальных методических средств, различных видов упражнений, важнейшими из которых являются упражнения по коммуникативной речи. Значение диалогической и монологической речи в речевом развитии велико.

**Ключевые слова:** речевое развитие, строение предложения, письменная и устная речь.

**Giriş /Introduction**

İnsanın mədəni yetkinliyinin, cəmiyyət üçün faydalı bir şəxsiyyət kimi formalaşmasının meyarlarından biri onun nitq mədəniyyətinə yiyələnməsidir. Bu, ümumtəhsil məktəbinin qarşısında duran ən mühüm ümumpedaqoji problemlərdən biridir. Nitq inkişafı üzrə işin vəzifəsi dil və təfəkkürün vəhdəti haqqında təlimdən irəli gəlir.

Nitq insanın əqli fəaliyyətinin yaranmasında bilavasitə iştirak edir və onun əsası olur. Şagirdlər mükəmməl nitqə yiyələnməklə xarici aləmdəki hadisə və əşyalar haqqında biliklərə yiyələnirlər.

Məktəb təlimi uşaqların nitq inkişafının mənbələrini və imkanlarını artırır. Uşaqlar təbiət və insanların əməyi üzərində müşahidə aparır, yoldaşları ilə ətrafdakılarla ünsiyyət saxlayır, kitab oxuyur, çıxış edir və s. Bu prosesdə şagirdin nitqi inkişaf edir. Çalışmaq lazımdır ki, şagirdlər müşahidə etdikləri varlıq haqqında fikirlərini daha dəqiq və düzgün əks etdirə bilsinlər, onların nitqdə işlətdikləri sözlər ifadə etdikləri anlayışlara, fikirlərə uyğun gəlsin. Şagirdlərin öz nitqlərinə və başqalarının nitqinə şüurlu yanaşmalarına nail olmaq lazımdır.

Şagirdlərin nitqi praktik şəkildə mənimsəmələri üzrə iş bütün fənlərin tədrisində, həmçinin tənəffüslərdə, sinifdənxaric məşğələlərdə, ictimai-faydalı işlərdə, əmək prosesində, evdə getməlidir.

Şagirdlərin nitqinin inkişafı üzərində belə ardıcıl iş aparmadan, onlara öz fikirlərini ifadə etmək üçün müvafiq sözü və ifadəni diqqətlə seçməyi, fikri məntiqi cəhətdən düzgün qurmağı öyrətmədən lazımi nəticə əldə etmək mümkün deyil.

Yazılı nitq üzrə işin başlıca məqsədi şagirdlərin gördükləri, eşitdikləri, oxuduqları, düşündükləri haqqında hamının başa düşə biləcəyi şəkildə aydın, dəqiq, mükəmməl, ifadəli yazmalarına nail olmaqdır. Bu bacarığa yiyələnmək

insanın təhsilinin məzmununda, mədəni inkişafında böyük əhəmiyyətə malikdir. İbtidai məktəbdə proqram həcmində belə vərdişə yiyələnməyən şagirdlər yuxarı siniflərdə ifadə və inşa, məruzə, divar qəzetinə məqalə, müəyyən tədbirlə əlaqədar məlumat yazmaqda çətinlik çəkirlər. Orta təhsil illərində yazılı nitqi inkişaf etməyən şəxslər ali məktəbdə mühazirə yaza, oxuduğu əsərlərin məzmununu yığcam şəkildə yaza, icmal tuta bilmirlər. Nəhayət, əlbəttə, jurnalist, yazıçı, alim olmaq üçün məhz təlimin ilk illərindən yazılı nitq üzrə proqram tələblərinin yerinə yetirilməsi zəruridir.

İsveçrə dilçisi məşhur F.de Sössürün "Ümumi dilçilik kursu" adlı əsərində dil və nitqin oxşar və fərqli cəhətləri ilk dəfə ətraflı şəkildə şərh olunmuşdur. O, dil və nitqi iki müxtəlif hadisə hesab etmiş, göstərmişdir ki, dil qrammatik sistem və lüğət tərkibindən, yəni dil vahidlərindən, nitq həmin vahidlərdən ünsiyyət məqsədilə istifadədir. Nitq fərdi danışıq və eşitmə faktorlarından ibarətdir. Sonralar bu tezislə bağlı müxtəlif nəzəriyyələr meydana gəlmiş, fikirlər söylənilmişdir. Bu fikirlər nəticə etibarilə belə ümumiləşdirilmişdir ki, dil və nitq fərqli kateqoriyalar olsa da, bu iki anlayış bir-birinə bağlıdır, bir-biri ilə dialektik vəhdətdədir, qarşılıqlı əlaqələr bu prosesdə baş verir.

Dil uşaq üçün anadangəlmə xüsusiyyət olmayıb, körpəlikdən başlayaraq tədricən formalaşır. Uşaq ana dilinə, əsasən, intuitiv şəkildə nitq vasitəsilə yiyələnir [Bayramov, 2002:121]. O, ətrafdakıların nitqini dinləyərkən müxtəlif fikirlərlə qarşılaşır, onları əzbərləyir və tədricən dəfələrlə təkrar olunan elementləri − söz və ifadələri müəyyən məna ilə bağlamağı öyrənir. Uşaq həmin elementləri yeni şəraitdə işlədir. Onların əsasında özü də yeni fikirlər söyləyir və beləliklə, ana dilinin quruluşuna yiyələnir.

Uşağın nitqini inkişaf etdirmək dedikdə, dilin materiyasını mənimsəməkdə ona kömək göstərmək, bu məqsədlə nitq orqanlarını məşq etdirmək, dilin leksik və qrammatik işarələrinin başa düşülməsini asanlaşdırmaq, intellekti hərəkətə gətirmək, leksik və qrammatik işarələrin köməyi ilə real vəziyyəti qiymətləndirməyi öyrətmək, emosiya və hissləri məşq etdirmək, ədəbi normaların yadda qalmasını, yəni morfem, söz, söz birləşməsi və cümlə kimi dil işarələrinin nitqdə işlədilmə ənənəsini, onların səs və qrafik tərkibini asanlaşdırmaq nəzərdə tutulur [Kərimov, 2008: 97].

Nitqə yiyələnmək öz fikir və hisslərini sözlərin köməyi ilə verməyi bacarmaq deməkdir.

Uşaqların nitqinin inkişafı üzrə işi düzgün təşkil etmək üçün müəllim dilçilik elminin nailiyyətlərinə istinad etməlidir. Nitq inkişafı dilçiliyin tətbiqi

bölməsi olmaqla düzgün danışmaq məsələlərini əhatə edir. Nitq inkişafına dair əsərlərdə, adətən, onun düzgünlüyü məsələsi mərkəzi yeri tutur. Nitqin düzgünlüyündən yalnız o vaxt danışmaq olar ki, o, dil normalarını (fonetik, orfoepik, leksik, söz yaradıcılığı, semantik, qrammatik, üslubi və s.) pozmasın.

Uşaq gündəlik həyatında müəyyənləşdirdiyi ümumi normalardan ibarət olan dili mənimsəyir, beləliklə də, onun nitqi formalaşır. İnsanlar nitq vasitəsilə bir-biri ilə ünsiyyət saxlayırlar. Dilin normalarının mənimsənilməsindən o zaman danışmaq olar ki, şagirdlər bu normalardan düzgün istifadə edə bilsinlər. Dilin normaları dedikdə, fonetik, orfoepik, lüğəvi və ya leksik, morfoloji, orfoqrafik, sintaktik, punktuasiya və üslubi qaydalar və qanunlar nəzərdə tutulur.

Fonetik normalar ibtidai sinif şagirdləri üçün sözdə səslərin düzgün tələffüzünü, onların bir-birindən fərqləndirilməsini əhatə edir. Orfoepik tələffüz dedikdə, sözlərin şifahi nitqin səlisliyi, şirinliyi baxımından tələffüzə üstünlüyün verilməsi, kitab tələffüzündən istifadə edilməməsi nəzərdə tutulur.

Şagirdlərin aşağı siniflərdən lüğət üzrə və ya leksik bilik və bacarıqlara yiyələnmələri zərurəti özünü göstərir. Ətrafdakılarla ünsiyyət, oxu, müşahidələr və praktik işlər şagirdlərin lüğət ehtiyatını yeni sözlər və terminlərlə zənginləşdirir. Bu prosesdə onların nitqi həm kəmiyyət, həm də keyfiyyətcə zənginləşir. Hər bir söz get-gedə yeni məna qazanır.

Sintaksis, əsasən, qrammatikanın tərkib hissəsi hesab edilsə də, əslində şagirdlərin nitq inkişafı baxımından  da mühüm əhəmiyyətə malikdir. Uşaqlar məna vahidlərindən ibarət sözlərin köməyi ilə söz birləşmələri qurmaqla yanaşma, uzlaşma və idarə əlaqələrini başa düşürlər.

Cümlənin qrammatik quruluşu intonasiya (səsin qalxması və alçalması, fasilə, cümlənin gücü və sürəti) ilə sıx əlaqədardır. Ona görə də şagirdlərə ifadəli oxumağı və danışmağı öyrətmək lazımdır. Şagirdlər cümlənin tərkibi, baş və ikinci dərəcəli üzvləri və s. haqqında biliklərə yiyələnməklə müxtəlif tərkibli, müxtəlif növ cümlə qurmağı, öz fikirlərini ifadə etməyi öyrənirlər [Kərimov, 2008:82]. Cümlənin qurulmasında sözlərin sırası mühüm rol oynayır. Cümlədə sözlərin sırasını dilimizə müvafiq şəkildə gözləyə bilmək bacarığına yiyələnməyən şagird öz fikrini müsahibinə düzgün çatdıra bilmir.

Bu sahədə mühüm vərdişin yaranması üçün cümlənin təhlili və tərkibi son dərəcə vacibdir. Şagird cümlənin formasını və məzmununu əvvəlcədən düşünməyi bacarmalıdır. Bu isə nəticə etibarilə onu rabitəli, kontekstli nitq qurmağa gətirib çıxarır. Nitqin bu formasından istifadə etmək − inşa qurmaq üçün ayrı-ayrı cümlələr arasında məna əlaqəsi yaratmağı, onları bir məna

ətrafında birləşdirməyi bacarmaq lazımdır. İnşa qurmaq üçün şagirdlərə plan üzrə danışmağı və yazmağı öyrətmək lazımdır.

Məktəbdə ifadə və inşanın müxtəlif növlərini qurmağın yolları öyrədilir. Şagird haqqında danışacağı və yazacağı əşyanı və ya hadisəni aydın təsəvvür etməli, ifadə edəcək fikri hissələrinə ayırmağı, onların ardıcıllığını, müəyyənləşdirməyi və öz fikrini dil cəhətdən düzgün ifadə etməyi bacarmalıdır.

Şagirdlərin nitqinin normal inkişafını təmin etmək üçün müəllim onların psixi proseslərinin inkişafını da yaxşı bilməlidir.

Psixoloqlar nitq inkişafı zamanı uşaqda hansı psixi proseslərin baş verdiyini müəyyənləşdirmişlər [Bayramov, 2002:234]. Onların nitqinin yaşlıların nitqindən nə ilə fərqləndiyini, daxili nitqin xarici nitqdən fərqini, uşaqların varlıq haqqında təsəvvürlərini, şüurlarında canlı varlığın necə əks olunmasını, təsəvvürlərinin sözlərlə necə ifadə olunmasını bilmək tərbiyəçi üçün vacibdir.

Psixoloji tədqiqatlarda sözlə əyaniliyin vahidliyi probleminə xüsusi əhəmiyyət verilir. Bu baxımdan bilavasitə canlı müşahidələrə əsaslanmaq faydalıdır. İkinci siqnal sisteminin (nitqin) birinci siqnal ilə (əyaniliklə) daim qarşılıqlı əlaqədə olması dil və təfəkkürün varlığın inikası olduğunu göstərir ona görə də dil üzrə məşğələlər həmişə uşaqların təbiət və cəmiyyətin həyatı üzərində müşahidələri ilə, onların xarici əşya və hadisələr haqqındakı bilavasitə təəssüratı ilə əlaqələndirilməlidir [Bayramov, 2002:253].

Obyektiv varlıq insanın şüurunda anlayış və mühakimə şəklində əks olunur. Anlayış dildə söz və söz birləşməsi, mühakimə isə cümlə vasitəsilə ifadə olunur. Hər hansı qrammatik anlayışın ümumi və mühüm əlamətlərini əks etdirən anlayışla həmin məfhumun maddi cildi olan sözü və hər hansı bir hökmlə onun maddi cildi olan cümləni bir-birindən ayrılıqda təsəvvür və tədqiq etmək olmaz. Nitqlə təfəkkür qırılmaz vəhdətdədir. Şagirdlərin beynində yaranan hər hansı fikir yalnız dil materialı əsasında baş verir. Onların nitqi isə fikirlərinin fəal işinə istinad edən idrak fəaliyyəti prosesində inkişaf edir. Başqa sözlə, lüğətin zənginləşdirilməsi fikrin məzmununun zənginləşdirilməsi ilə sıx əlaqədədir. Söz fikri ifadə etmək üçün işlənir. Əgər fikir anlaşılmazsa, söz də anlaşılmaz bir şeyə çevrilir. İnsanlar yalnız özləri yaxşı başa düşmədiklərini ifadə etdikdə söz tapa bilmirlər. Ona görə də şagirdlərin nitqinin inkişafı ilə onların təfəkkürünün zənginləşdirilməsi üzrə iş paralel getməlidir.

Nitq inkişafı və təfəkkürün vəhdəti haqqında təlim duyğulardan fikrə keçmək haqqında mühüm fəlsəfi məsələdir. Təfəkkür və nitq problemi üzrə tədqiqat zamanı keçmiş psixoloqlar çox vaxt fikrin sözə münasibəti kimi mühüm

məsələdə səhvə yol vermişlər. Onların bir qismi fikirlə nitqi eyniləşdirmişlər. Bəziləri isə belə bir qənaətə gəlmişlər ki, təfəkkür bir-birindən asılı olmayan, müstəqil və təcrid olunmuş proseslərdir. Onlar tədqiqat prosesində fikrin nitqə münasibəti kimi mühüm məsələdən yan keçirlər. L.S.Vıqotski bu müvəffəqiyyətsizliyin səbəbini tədqiqat metodunun düzgün olmamasında, xüsusilə problemin təhlilinin metafizikcəsinə başa düşülməsində görürdü.

Sözün səs qabığı ilə onun leksik mənası, forması ilə məzmunu eyniyyət təşkil etmir, lakin qırılmaz vəhdətdədir. Sözün xarici və daxili cəhətini eyniləşdirmək təffəkkürlə nitqi eyniləşdirmək deməkdir. Halbuki nitq heç də həmişə təfəkkürün aynası hesab edilə bilməz. Biz hər hansı fikri müxtəlif şəkildə ifadə edə bilirik. Digər tərəfdən müşahidələr göstərir ki, bir çox hallarda uşaqlar müxtəlif sözləri, nitq formalarını və ifadələrini işlədir, lakin onların mənalarını bilmirlər, çünki əşyaların adları hələ onların mənası demək deyil. Sözün mənası əşya, hadisə və ya münasibətlərin şüurumuzda əks edilən onun daxili cəhətidir. Sözün səslənməsi isə mənanın ifadə olunması, həmçinin digər adamlara çatdırılması, həm də onun meydana gəlməsi, formalaşması, mövcudiyyəti və inkişafı üçün zəruri olan maddi qabıqdır. Deməli, "sözün əsasında varlığın ümumiləşdirilmiş inikası olan anlayış durur".

Anlayışla söz qırılmaz vəhdətdə olsa da, bu, onları eyniləşdirməyə əsas vermir. Söz dilin, anlayış isə məntiqin kateqoriyasıdır. Anlayış təfəkkürün elementi olmaqla varlığın hadisələrini ümumiləşdirir, əşyanın ümumi əlamətlərini əks etdirir. "Uşaq sözü ona aid məna ilə birlikdə çox tez mənimsəyir. Həmin sözlə ifadə olunan anlayış isə varlığın ümumiləşmiş obrazı olmaqla uşaq inkişaf etdikcə artır, genişlənir və dərinləşir". Nitq və təfəkkürün inkişafında anlayışların sistemləşdirilməsi üzrə iş müşahidələrə əsaslanır. "Dilin bütün məntiqi təbiətin əşya və hadisələri üzərində müşahidələrdən çıxmışdır".

Adətən kiçik məktəb yaşlı uşaqların təfəkkürünün konkret olmasını qeyd edirlər. Şübhəsiz, əyani obrazlarla xarakterizə edilən təsəvvürlər konkret olur, lakin bu təsəvvürlər ümumiləşdirmənin bəzi elementlərini özündə cəmləşdirir. L.V.Zankovun təbirincə ümumiləşdirmənin özü anlayışa daxil olduğundan o, əşyaların müəyyən cəhətinin mücərrədləşdirilməsi ilə qırılmaz əlaqədə mövcuddur. Mücərrəd təfəkkürsüz insan biliyi irəliyə hərəkət edə bilməz, çünki mücərrədlikdə insan idrakının müntəzəm yüksəlişi baş verir. Mücərrədləşdirmə üzrə iş I sinifdən şagirdlərin gücünə müvafiqdir. Şagirdlərin nitqinin inkişafında bütün bunların nəzərə alınması vacibdir. Anlayışla söz qırılmaz vəhdətdə olsa da, bu, ünsiyyət prosesinin şifahi (səsli) və yazılı (qrafik) formaları bilavasitə

bir-biri ilə qarşılıqlı əlaqədə olur. Şagirdlərin nitqinin inkişaf etdirilməsi üzrə işin düzgün təşkil olunması üçün müəllimin şifahi və yazılı nitqin xüsusiyyət- lərini bilməsi, nitqin bu formalarının hər birinin özünəməxsus normalarını fərqləndirməyi onlara öyrətməsi çox vacibdir.

Azərbaycan dili tədrisinin başlıca məqsədi olan şifahi və yazılı nitq nəinki ibtidai, hətta yuxarı siniflərdə də eyni səviyyədə inkişaf etmir. Belə ki, uşaqların bir qrupu çox yaxşı şifahi nitqə malik olduqları halda, fikrini yazılı şəkildə ifadə etməkdə çətinlik çəkir. Digər qrupu isə, əksinə, ifadə və inşa yazarkən müvəffəqiyyət qazandıqları halda, şifahi nitqləri anlaşılmaz, darıxdırıcı, sönük olur, az da olsa, nitqin hər iki cəhətinə eyni səviyyədə yiyələnən uşaqlara rast gəlmək mümkündür. Nitq inkişafı sahəsində özünü göstərən bu müxtəliflik şifahi və yazılı nitqin psixologiyasının eyni olmadığını sübut edir. Şifahi və yazılı nitq insanların bir-biri ilə dil vasitəsilə ünsiyyətinin iki formasıdır. Şifahi nitqin əsasında nitq orqanlarından gələn eşitmə duyğusu, yazılı nitqin əsasında isə həm də görmə və yazan əlin hərəkətlərindən ibarət hərəki duyğular durur.

Deməli, şifahi nitq eşitmə qavrayışı üçün müəyyənləşdirilmiş səsli nitq, yazılı nitq isə görmə qavrayışı üçün müəyyənləşdirilmiş qrafik nitqdir. Bu duyğular şagirdlərin oxumaq, yazmaq, düzgün danışmaq bacarığının inkişafı üçün böyük əhəmiyyətə malikdir. Ona görə də normal görməyən, normal eşitməyən uşaqlarla xüsusi iş aparmalı, qeyri-dəqiq, ifadəsiz danışanlar isə loqopedə göstərilməlidirlər.

İnsanlar düşündüklərini və dərk etdiklərini dil vasitəsilə ifadə edirlər. Dil fikrin ifadə aləti kimi təzahür etdiyinə görə beynin fəaliyyəti olan təfəkkürlə sıx əlaqədardır. Dil ilə təfəkkür eyni vaxtda və eyni mənbədən yarandıqları üçün vəhdət təşkil edir [Qurbanov, 2019:10].

Ünsiyyət zamanı qarşıda duran vəzifədən asılı olaraq şifahi və yazılı formaları insanlarla bilavasitə ünsiyyəti (dərsdə, mühazirədə, yığıncaqda çıxışı, dialoqu, müsahibəsi və s.) nəzərdə tutur. Şifahi nitq insanların konkret həyat şəraitində dilin köməyi ilə canlı ünsiyyət prosesidir. Deməli, şifahi nitq, əsasən, qarşı-qarşıya gedən bir prosesdir. Onun üçün danışanın və dinləyənin, soruşanın və cavab verənin olması vacibdir. Şifahi nitq tələb edir ki, dinləyən onu danışıq prosesində başa düşsün. Şifahi nitq avtomatik yaranır və təbii şəraitdə gedir. Bu zaman düşünməyə, araşdırmağa vaxt qalmır. Yazılı nitq isə ünsiyyətə cəlb olunanların iştirakını tələb etmir, çünki nitqin bu formasının kimə aid olduğunu müəyyənləşdirmək də çətindir. Yazılı nitq prosesində fikirləşmək, götür-qoy

etmək üçün imkan olur. Şifahi nitq təsadüfdən-təsadüfə, yazılı nitq isə həmişə monolojidir.

Şifahi nitq öz quruluşu və sözlərin seçilməsi cəhətdən sərbəst olduğundan danışan kitab cümlələrindən, çətin termin və ifadələrdən, mürəkkəb konstruksiyalardan qaçır, sözləri asan tələffüz etməyə çalışır, cümlədə istədiyi sözün üzərinə məntiqi vurğunu salmaqla fikrin dinləyiciyə daha dəqiq, aydın çatmasına nail olur.

Şifahi nitqdə eyni məsələyə dəfələrlə qayıtmaq, lazımi sözü, ifadəni, cümləni təkrarlamaq, lazım gəldikdə sözü, ifadələri buraxmaq, daha güclüsü, dəqiqi ilə əvəz etmək, cümlənin üslubunu dəyişmək mümkündür. Uzunmüddətli təfəkkür prosesinin nəticəsi olan yazılı nitqdə məntiqi ardıcıllıq gözlənir, sözlərin buraxılmasına, yersiz təkrarlara yol verilmir. Leksik, morfoloji və sintaktik cəhətdən cilalanmış yazılı nitqə yiyələnmək üçün şagirdlər uzun bir yol keçirlər. Yazılı nitqin mürəkkəb və mücərrəd olmasının nəticəsidir ki, şagirdlərin ona yiyələnmələri uzun vaxt və gərgin əmək tələb edir.

Şifahi nitq yazılı nitqə nisbətən daha ifadəlidir. Bu, onun dinləyicilər tərəfindən düzgün başa düşülməsinin mühüm şərtlərindən biridir. Şifahi nitqdə ifadəliliyin müxtəlif vasitələrindən istifadə olunur: səsin qaldırılması və aşağı salınması, fasilə, sürət, vurğu, lazımi söz və ifadənin səslə ayrılması, mimika, jest və s. [Qurbanov, 2003: 94]. Bütün bunlar şifahi nitqi ifadəli etməklə yanaşı, həm də dinləyicidə inam, əqidə yaratmağın mühüm vasitəsidir. Yazılı nitq isə belə yardımcı vasitələrdən məhrumdur. Ona görə də bir çox hallarda yazılı nitqin məzmununu başa düşmək çətin olur. Bu fikri belə bir həqiqət təsdiq edir ki, bəzən müəyyən mətni ucadan oxuyana nisbətən onu dinləyənlər daha yaxşı başa düşürlər, lakin yazılı nitq hissələrə, abzaslara paraqraflara ayrılır. Kursiv, dırnaq, sual və nida işarələri, çox nöqtə diqqəti lazımi sözə, başlıcanı ayırmağa, yazılı mətnin məzmununu daha dəqiq verməyə şərait yaradır.

Yazılı nitqdə, sözləri diqqətlə seçmək, lazım gəldikdə, jestləri, mimikanı və intonasiyanı da sözlərlə ifadə etməyə çalışmaq lazımdır. Şifahi nitq prosesində müsahiblər bir-birini tez və yaxşı başa düşdüklərindən nitqin bu cəhəti öz yığcamlığı, müxtəsərliyi lazım gəldikdə hətta yarımçıqlığı ilə fərqlənir. Hadisənin şahidi olan, bir-birini yaxşı başa düşən tərəflərin hər ikisi söhbət zamanı cümlədə bu və ya digər sözü, hətta baş üzvləri buraxmaqla ünsiyyət saxlayırlar. Şifahi nitq insanların fərdi xüsusiyyətlərini nəzərə almaq üçün müəyyən imkanlara malikdir. Müsahibin sözü necə deməsindən, səsinin

tonundan, intonasiya çalarlarından, gözlərindəki mənadan, mimikasından asılı olaraq lazımi söz, ifadə, ton seçmək mümkündür [Abdullayev, 2002: 49].

Dinləyicilərin tərkibindən, səviyyəsindən asılı olaraq danışan eyni fikri müxtəlif cür çatdıra bilər. Şifahi və yazılı nitq istifadə etdiyi dil materialına görə də fərqlənir. Sərbəst nitq olan şifahi nitqdə biz danışıq dilinin leksik, qrammatik və üslubi vasitələrindən istifadə edirik. Şifahi nitq şagirdlərdən sözlərin orfoepik normalara müvafiq tələffüzünü, nitq formalarının düzgünlüyünü tələb edir.

Şifahi nitq öz sintetik quruluşuna görə sadədir. Bu nitqdə adətən, sadə, qısa, cümlələrdən istifadə olunur. Şifahi nitq tələffüzün fizioloji və psixoloji şəraiti ilə əlaqədardır. Biz hər bir fikri bir dəfə nəfəs alıb-verməklə tələffüz etməyə çalışırıq.

Yazılı nitq isə müxtəlif mürəkkəb cümlələrlə ifadə olunmaqla kitab vasitələrinə əsaslanır. Qrammatik normalarla idarə olunan bu nitq daha çox normalaşdırılmış, davamlı nitqdir. Yazı zamanı bu və ya digər sözün çətinlik dərəcəsinin, orfoqrafik cəhətdən savadlılığın nəzərə alınması və fikrin rabitəli şəkildə ifadə olunması mühüm şərtdir.

Adətən, şagirdlərin şifahi nitqi onların yazılı nitqindən zəngin olmaqla təlim prosesində mühüm yer tutur. Şagirdlər yeni biliklərə məhz şifahi nitq vasitəsilə yiyələnirlər. Şifahi nitq tədricən yazılı nitq üçün möhkəm əsas yaradır. Şagirdin şifahi nitqi nə qədər inkişaf edərsə, onun yazılı nitqi də o qədər yüksək olar. Yazılı nitqin inkişafı isə öz növbəsində şifahi nitqin zənginləşməsinə, cilalanmasına təsir göstərir. Ona görə də müəllim nitqin hər iki cəhətinin qarşılıqlı inkişafı qayğısına qalmalıdır. Şagirdlərin düzgün, ifadəli danışmalarına, öz fikirlərini yazılı şəkildə dəqiq ifadə etmələrinə nail olmaq son dərəcə vacibdir. Yazılı nitqə yiyələnmək çox çətin olduğundan I sinifdə dərs ilinin axırlarından şagirdlərə öz şifahi fikirlərini yazılı şəkildə ifadə etmək qaydasını öyrətmək lazımdır. Onlar eyni fikri daha yığcam, daha dəqiq, daha gözəl sözlərlə, ifadəli verməyi öyrənməli, ifadə və inşadakı səhvlərini görməyi və düzəltməyi bacarmalıdırlar.

**Nəticə / Conclusion**

Nitq inkişafı dil dərslərində ana xətdir. Azərbaycan dili tədrisində son məqsəd məhz şagirdlərə əldə etdikləri bilikləri savadlı şəkildə düzgün, rabitəli və məzmunlu ifadə etməyi öyrətməkdir. Ana dilindən sinfin hazırlığı, müəllimin fəaliyyətinin nəticəsi, məhz şagirdlərin rabitəli nitqə yiyələnmələri ilə ölçülməlidir. Ona görə də müəllim öz sualları, söhbətləri, oxuduğu bədii parçaların təsiri, təbiət və ətraf aləm üzərində müşahidələri, insanların əməyi ilə

tanışlıq və s. əsasında şagirdlərin rabitəli nitqinin məzmunluluğunun qayğısına qalmalıdır. [Kərimov, 2008:67]. Əgər uşağın müşahidəsi diqqətin müəyyən əşya və hadisə üzərində toplandığı, təhliledici bir proses şəklində gedərsə, şagird müşahidə prosesində oxşar və fərqli cəhətləri tapıb tutuşdurarsa, onların hər birini aydın başa düşməyə çalışarsa, onun nitqi məzmunlu olar.

Rabitəli nitqin məzmunluluğu şagirdlərin plan tələb edə bilmə bacarığından da asılıdır. Şagird əvvəlcə oxuduğu hekayəni, müşahidəsinin şəkil üzrə yazacağının planını fikrən hazırlamalıdır. Yazılı ifadə və inşaya orfoqrafik, leksik hazırlıq rabitəli nitqin məntiqi cəhətdən, məzmunca bitkinliyini, dərin- liyini, dəqiqliyini təmin edir.

**Ədəbiyyat/ References**


1. Abdullayev, N., Məmmədov, Z. (2002) Müəllimin nitq mədəniyyəti. – Bakı: − 214 s.
2. Bayramov, Ə.S., Əlizadə, Ə.Ə. (2002). Psixologiya. Ali məktəb üçün dərslik. − Bakı: Çinar-Çap. − 626 s.
3. Kərimov, Y.Ş. (2008). Uşaq bağçasında nitq inkişafı. – Bakı: Maarif. − 167 s.
4. Kəlbəliyev, Ə. (2002). Azərbaycan dili dərslərində şagirdlərin nitq etiketlərindən düzgün istifadə bacarığının aşılanması imkanları. – Bakı: − 125 s.
5. Qurbanov, A.M. (2019). Müasir Azərbaycan ədəbi dili. − Türkiyə: İmak. − 463 s.
6. Məmmədov, İ. (1989). Ekran, efir və dilimiz. – Bakı: − 304 s.
7. Xudiyev, N. (2000). Ədəbi dilimiz efirdə və ekranda. – Bakı: − 161 s.
8. Şirəliyev, M.Ş. (1970). Müasir Azərbaycan dili orfoepiyasının əsasları. – Bakı: “Elm”. − 237 s.



**Məqalə tarixçəsi**

*Daxil olub* 16.02.2024

*Qəbul edilib* 07.03.2024

*Nəşrə tövsiyə edib* *Adil Babayev*

*filologiya elmləri doktoru, professor*